

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 44 (20.945)

7 mart 2014-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymətı 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 6-da Serbiyanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zoran Vayoviçi diplomatik fəaliyyətinin başa çatması ilə əlaqədar qəbul etmişdir.

Dövlətimizin başçısı Azərbaycan ilə Serbiya arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə genişləndirilməsi istiqamətində ötən dövr ərzində böyük uğurlar əldə olunduğunu vurğuladı. Qısa vaxt ərzində ölkələrimizin bir-birinə daha çox yaxınlaşdığını deyən Prezident İlham Əliyev əlaqələrimizin inkişafında müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmini qeyd etdi. İkitərəfli münasibətlərimizin inkişafında səfir Zoran Vayoviçin fəaliyyətini yüksək qiymətləndirən dövlətimizin başçısı gələcək işlərində ona uğurlar arzuladı.

Səfir Zoran Vayoviç son illər ölkələrimiz arasında münasibətlərin sürətlə inkişaf etdiyini məmnunluqla vurğuladı. O bildirdi ki, Azərbaycandakı diplomatik fəaliyyəti dövrü onun həyatının ən parlaq və unudulmaz hissələrindən biridir.



## Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi işçilərinin “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Aslanova Sədaqət Bəbir qızı
Əsgərova Nəzakət Fərman qızı
Xudaverdiyeva Kəmalə Faiq qızı
Qurbanov Cavanşir Məmməd oğlu
Rəsulov Ramiz Məhərrəm oğlu – **“Rəşadətli əməyə görə”** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 6 mart 2014-cü il*

## “Rəşadətli əməyə görə” nişanı ilə təltif haqqında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 21-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Bağırova Şövkət Abbas qızı
Bayramova Məhəbbət Fərman qızı
Ələkbərova Rahilə Ələkbər qızı
Əsgərova Azadə Dilən qızı
Hacıyeva Mahirə Yusif qızı
Həsənova Dürdanə Həsən qızı
Hüseynova Səmayə Müslüm qızı
Mehdiyeva Səbahət Fərrux qızı
Məmmədova Samirə Vasif qızı
Novruzova Məlahət Rəşid qızı
Rüstəmova Ramidə Qənbər qızı
Səfərova Kəmalə Əsəd qızı
Şəfiyeva Nubar Nəsrulla qızı
Tarverdiyeva Müşfiqə Xıdır qızı – **“Rəşadətli əməyə görə”** nişanı ilə təltif edilsinlər.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 6 mart 2014-cü il*

## “Heydər Əliyev lektoriyası”nın növbəti məşğələsi muxtariyyət mövzusuna həsr edilmişdi

***XX əsrin əvvəllərində əldə edilən muxtariyyət naxçıvanlıların qəhrəmancasına və fədakar mübarizəsinin məntiqi nəticəsi, yaranmış beynəlxalq şəraitin yaratdığı imkanların milli məqsədlər uğrunda layiqincə dəyərləndirilməsi idi. XX əsrin 90-cı illərinin əvvəllərində muxtariyyətin qorunması muxtariyyətin əldə edilməsi qədər çətin bir mübarizənin nəticəsində mümkün olub. Məhz ümummilli lider Heydər Əliyevin fəaliyyəti nəticəsində muxtariyyətin qorunması təmin edilib. Naxçıvanın muxtariyyəti yaranmış coğrafi ərazi vəziyyətinin yaratdığı zərurətdir.***

AMEA Naxçıvan Bölməsində “Heydər Əliyev lektoriyası”nın 58-ci məşğələsini giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev bu fikirləri səsləndirib.

AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun şöbə müdiri Emin Şıxəliyev “Heydər Əliyev və Naxçıvanın muxtariyyət məsələsi” mövzusunda geniş məruzə edib. Məruzəçi vurğulayıb ki, Naxçıvanın geostrateji mövqeyi hər zaman dünyanın böyük dövlətlərinin maraq dairəsində olub.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Naxçıvanın bu əhəmiyyətini hər zaman önə çəkib, hələ sovet dövründə Naxçıvanın inkişafı və tərəqqisi istiqamətində işlərin həyata keçirilməsi üçün bir çox addımlar atılıb. XX əsrin 90-cı illərinin əvvəllərində isə Naxçıvanın taleyi ümummilli lider Heydər Əliyevin, Heydər Əliyevin taleyi isə Naxçıvanın taleyinə çevrilib. Naxçıvanı Azərbaycandan qoparmaq istəyən xarici təcavüzkar qüvvələrin qarşısında ən böyük güc ümummilli lider Heydər Əliyev, Heydər Əliyevi Azərbaycanın ictimai-siyasi həyatından uzaqlaşdırmaq istəyən daxili qüvvələrin qarşısında ən böyük amil isə Naxçıvanın muxtariyyət statusu və Naxçıvan əhalisinin qətiyyəti olub.

Məruzədən sonra çıxışlar olub, məruzəçiyə lektoriya iştirakçıları tərəfindən ünvanlanan suallar cavablandırılıb.

## Yeni yaşayış binaları tikilir

***Əhalinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlər Naxçıvan Muxtar Respublikasında geniş vüsət alan tikinti işlərinin tərkib hissəsidir.***

Naxçıvan şəhərinin Atatürk və Əziz Əliyev küçələrində inşa olunan yeni yaşayış binaları bu tədbirlərin davamıdır. Atatürk küçəsində yerləşən bina zirzəmi ilə birlikdə 9 mərtəbədən ibarətdir. Tikinti işlərinə ötən ilin fevral ayından başlanılıb. İş icraçısı Rəfael Zamanovdan aldığımız məlumata görə, 54 mənzilli nəzərdə tutulmuş yaşayış binasında beton-qəlib işləri başa çatdırılıb, 4-cü mərtəbəyədək arakəsmələr hörülüb, dam örtüyünün vurulmasına başlanılıb. Bundan əlavə, binada elektrik xətlərinin çəkilişi və digər təchizat işləri davam etdirilir. Tikinti işləri “Gəmiqaya” Məhdud Məsuliyyətli Cəmiyyətinin inşaatçıları tərəfindən aparılır.

Əziz Əliyev küçəsində isə 3 yeni yaşayış binasının ucaldılması əraziyə yeni görkəm bəxş edəcək. Obyektlərin inşasını həyata keçirən Naxçıvan Şəhər Abadlıq və Təmir-Tikinti İdarəsinin iş icraçısı Əmirxan Mazanovun bildirdiyinə görə, inşaat işlərinin davam etdirildiyi 3 yaşayış binasından ikisi 30, biri isə 20 mənzillidir. Ümumilikdə, 80 mənzildən 75-i ikiotaqlı, 5-i isə üçotaqlı olacaq. Üçotaqlı mənzillər 65 kvadratmetr, ikiotaqlı mənzillər isə 54 kvadratmetr sahəni əhatə edəcək. Hər üç binada arakəsmələr hörülüb, dam örtüyü vurulub, xaricdə travertin daşla üzləmə işləri aparılır. 43 və 45 nömrəli binalarda pəncərələr salınıb, 47 nömrəli binada isə bu iş davam etdirilir.

Hər iki obyektdə aparılan tikinti işlərində, əsasən, yerli tikinti materiallarından istifadə olunur. Tikintidə təhlükəsizlik qaydalarına ciddi əməl edilir. İnşaatçılar işin keyfiyyətlə və vaxtında başa çatdırılması üçün əllərindən gələni əsirgəmirlər.

**Xəbərlər şöbəsi**

## Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin yaradılmasının 90 illiyi qeyd olunub

***Dünən Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin yaradılmasının 90 illiyi ilə əlaqədar tədbir keçirilmişdir. Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsini və Heydər Əliyev Muzeyini ziyarət etmişlər. Sonra tədbir Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin akt zalında davam etdirilmişdir.***



Tədbiri komitə sədri Bəxtiyar İsmayılov açaraq bildirmişdir ki, Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Mərkəzi İcraiyyə Komitəsi Rəyasət Heyətinin 1924-cü il 6 mart tarixli qərarı ilə Naxçıvan Muxtar Sovet Sosialist Respublikası Mərkəzi Statistika İdarəsi yaradılmışdır. İdarənin tabeçiliyi və adı bir neçə dəfə dəyişdirilərək 1931-ci ildə Naxçıvan MSSR Dövlət Plan Komitəsi nəzdində Xalq Təsərrüfatının Qeydiyyat İdarəsi,1934-cü ildə Naxçıvan MSSR Xalq Təsərrüfatı Uçotu İdarəsi, 1946-cı ilin mart ayından isə yenidən Naxçıvan MSSR Mərkəzi Statistika İdarəsi adlandırılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1993-cü il 3 aprel tarixli Fərmanına əsasən, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi yaradılmışdır.

Qeyd olunmuşdur ki, idarənin yarandığı ilk illərdə əsas fəaliyyətini əhalinin uçota alınması təşkil edirdisə, 1932-ci ildən başlayaraq sənaye müəssisələrinin, 1934-cü ildən isə kolxozlar üzrə illik hesabat məlumatlarının yığılıb işlənilməsinə başlanılmışdır. 1960-1970-ci illərdə muxtar respublikanın statistika orqanları xalq təsərrüfatında, ilk növbədə isə kənd təsərrüfatında uçotun mexanikləşdirilməsi ilə məşğul olmuşdur. Müstəqilliyimizin bərpa edilməsindən sonra inzibati amirlik sistemindən bazar iqtisadiyyatına keçid, ümumilikdə, rəsmi statistikanın strukturunu və iş prinsipini dəyişmiş, yeni fəaliyyət istiqamətləri müəyyənləşdirilmişdir. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin yaradılması yeni strukturun hüquq və vəzifələrini daha da artırmışdır. Hazırda komitə muxtar respublikada statistika sahəsində dövlət siyasətini həyata keçirən, sosial, iqtisadi, demoqrafik və ekoloji vəziyyətlə bağlı rəsmi statistik məlumatları vahid metodologiya əsasında formalaşdıran mərkəzi icra hakimiyyəti orqanıdır. İdarəetmənin səmərəli təşkili üzrə həyata keçirilən davamlı tədbirlər çərçivəsində komitənin kadr potensialının və maddi-texniki bazasının gücləndirilməsi işi muxtar respublika rəhbərinin daim qayğısı ilə əhatə olunmuşdur. Vurğulanmışdır ki, iqtisadiyyat və cəmiyyət həyatı üzrə münasibətlərin daha da dərinləşməsi, ən əsası hazırkı inkişaf və tərəqqinin yüksək mərhələsi, islahatların genişmiqyaslılığı paralel olaraq rəsmi statistikanın da davamlı qaydada təkmilləşdirilməsini zəruri edir. Məhz bu baxımdan Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi qarşıda duran vəzifələrin uğurla icrası, müasir standartlara uyğun statistika işinin təşkili və bu istiqamətdə yeniliklərin tətbiqi məqsədilə yüksək keyfiyyət göstəricilərinə malik fəaliyyətin təmin olunmasına çalışacaqdır.

Tədbirdə statistika sahəsində uzun illər çalışmış Qadir Qarayevin, Vilayət Əhmədovun və komitənin aparıcı məsləhətçisi Nuranə Rüstəmovanın çıxışları olmuşdur.

Sonda “Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsi işçilərinin “Rəşadətli əməyə görə” nişanı ilə təltif edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 6 mart 2014-cü il tarixli Sərəncamı ilə mükafatlandırılan statistika işçilərinə “Rəşadətli əməyə görə” nişanları təqdim edilmişdir. Bir qrup əməkdaşa isə komitənin fəxri fərmanları verilmişdir.

Təltif olunanlar əməklərinə verilən yüksək qiymətə görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə öz minnətdarlıqlarını bildirmişlər

Tədbirə Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin sədri Bəxtiyar İsmayılov yekun vurmuşdur.

**Səbuhi HƏSƏNOV**

# Blokadadan möhtəşəm tərəqqiyə doğru



***Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan haqqında danışarkən demişdir:*** *"Naxçıvan blokada şəraitində yaşayır. Ancaq naxçıvanlılar bu blokadanı hiss etmirlər. Çünki həm Naxçıvanın rəhbərliyi çox böyük işlər görür, həm də Azərbaycan dövləti, hər zaman olduğu kimi, Naxçıvana böyük diqqət göstərir".*

Blokada şəraitində yaşayan Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafına göstərilən diqqət və qayğının əsası müstəqil Azərbaycanın qurucusu, ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikasında naxçıvanlılarla birgə çətin şəraitdə yaşayan ulu öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə 1991-ci ilin sentyabrında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri seçildi və gərgin fəaliyyəti sayəsində bölgəni ağır vəziyyətdən xilas etdi. Onun rəhbərliyi ilə həyata keçirilən tədbirlərin əsas istiqamətlərini siyasi sabitlik, iqtisadi potensialdan səmərəli istifadə, xarici ticarət və əməkdaşlıq əlaqələrinin gücləndirilməsi təşkil edirdi.

Blokadanın doğurduğu ilkin və ən böyük təhlükə qismində ərzaq çatışmazlığı problemlərinin həlli və məşğulluğun səmərəli təşkili məqsədilə aqrar islahatlara ilk dəfə məhz həmin dövrdə başlanılmışdır. Ümumilikdə isə həmin illərdə Naxçıvanda başlanılmış çoxşaxəli islahatların sonrakı illərdə də diqqətdə saxlanılması, Heydər Əliyev ideyalarına dönmədən əməl olunması hazırkı uğurlarımızı şərtləndirən başlıca amildir.

Məqsədyönlü fəaliyyət nəticəsində, ilk növbədə, muxtar respublikamızın hərtərəfli tərəqqisində mühüm amil olan ictimai-siyasi sabitlik qorunub saxlanılmışdır. Bütün iqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət muxtar respublikamızda tarazlı və davamlı inkişaf üçün başlıca amil olmuş, şəhər və rayonlarımızda canlanma yaranmış, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılmış, yeni təsərrüfat subyektlərinin fəaliyyəti sayəsində işsizliyin səviyyəsi sıfra enmişdir. Muxtar respublikamızın mərkəzində olduğu kimi, rayonlarımızda, hətta ən ucqar kəndlərimizdə belə, nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi sosial-iqtisadi və mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaratmışdır. Muxtar respublikada mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əmək məşğulluğunun artırılmasına və ümumilikdə, muxtar respublika iqtisadiyyatının dinamik inkişafına nail olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyevin müəyyən etdiyi alternativsiz strategiyaya əsaslanan ölkə Prezidenti cənab İlham Əliyevin dövrün tələblərini nəzərə almaqla daim təkmilləşdirdiyi inkişaf siyasətinə uyğun olaraq, Naxçıvan Muxtar Respublikasının modernləşmə xətti artıq keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra cənab İlham Əliyevin muxtar respublikamıza etdiyi ardıcıl səfərlərdə söylədiyi fikirlərin və dərin məzmunlu nitqlərin ortaq və oxşar bir tərəfi ölkə rəhbərinin blokadada olan bir inzibati ərazidə möhtəşəm quruculuğa şahid olmaqdan duyduğu məmnunluğu, bu sahədə muxtar respublika rəhbərinin gərgin əməyini və bu inkişafa ölkə başçısı kimi verəcəyi davamlı dəstəyi qeyd etməsidir.

Keçən zaman ərzində blokada şəraitinin yaratdığı mənfi nəticələrin aradan qaldırılmasını, istehlak və istehsal prosesləri üzrə yerli tələbatın vaxtında və keyfiyyətli ödənilməsini, məşğulluq məsələlərinin səmərəli həll edilməsini, ümumilikdə isə sənayeləşmənin daha da genişlənməsini təmin etmək məqsədilə yeni sənaye müəssisələrinin yaradılmasına ciddi fikir verilmişdir. Muxtar respublikada sənaye sahəsində əldə olunmuş dinamik inkişaf meyillərinin dayanıqlılığının təmin olunması üçün həyata keçirilən kompleks tədbirlərin mühüm bir istiqaməti bu sahədə səmərəli kreditləşdirmə mexanizminin formalaşdırılmasından ibarətdir.

Uzun müddət ərzində enerji resurslarından istifadə imkanlarının məhdudluğu blokadanın yaratdığı ən kəskin problemlərdən biri kimi ümumi inkişafa ciddi mənfi təsir göstərməkdə idi. Ötən illər ərzində bu sahədə intensiv tədbirlər həyata keçirilmiş, infrastruktur müasir standartlar səviyyəsində yenilənmiş, davamlı olaraq yeni enerji resursları yaradılmışdır ki, bu da, son nəticədə, enerji təhlükəsizliyimizin səmərəli qurulmasını şərtləndirmişdir.

Enerji böhranının başlandığı, elektrik enerjisinin uzunmüddətli fasilələrlə verildiyi, təbii qaz nəqlinin dayandırıldığı, yanacağın çatışmadığı illərdə, xüsusilə də qış aylarında əhali təsərrüfatları ciddi çətinliklərlə üzləşmiş və bu səbəbdən də meşə massivlərindəki, yaşıllıq zolaqlarındakı çoxillik ağaclar kütləvi şəkildə kəsilərək istilik üçün istifadə olunmuşdur. İstilik enerjisinin alınmasında əsas xammal qismində odundan, kəsilmiş ağaclardan istifadə, son nəticədə, mövcud meşə massivlərinin, yolların və yaşayış məntəqələrinin ətrafındakı yaşıllıq zolaqlarının, demək olar ki, məhvinə gətirib çıxarmışdı. Həmin dövr üçün qaçılmaz olan bu proseslərin mənfi nəticələrinin aradan qaldırılması məqsədilə sonrakı illər ərzində ardıcıl tədbirlər görülmüş, keçirilən yaşıllaşdırma tədbirləri çərçivəsində qısa zamanda min hektarlarla meşə örtüyü bərpa olunmuş, yeni meşə massivləri, yaşıllıq zolaqları və meyvə bağları salınmışdır.

Enerji təhlükəsizliyi ilə bağlı görülən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublikada yaradılmış elektrik stansiyaları elektrik enerjisinə olan daxili tələbatı tam ödəməklə yanaşı, elektrik enerjisinin ixracına da imkan yaratmışdır.

Uzunmüddətli fasilədən sonra muxtar respublikada istehlakçılar, ən əsası isə əhali təsərrüfatları təbii qazla təmin olunmuşdur.

Ötən dövr ərzində dayanıqlı əhali məskunluğunun təmin edilməsi üçün böyük əmək sərf olunmuş, bu prosesin normal məcraya yönəldilməsi məqsədilə kompleks tədbirlər reallaşdırılmış və bu sahədə ciddi dönüşə nail olunmuşdur.

Naxçıvan Muxtar Respublikasında reallaşdırılmış iqtisadi və sosial təmayüllü islahatlar nəticəsində qısa zaman ərzində makroiqtisadi sabitlik təmin olunmuş, əhalinin həyat səviyyəsi əhəmiyyətli dərəcədə yaxşılaşmışdır.

İqtisadi inkişaf, sosial həyat standartları və insanların yaşayış səviyyəsi üzrə müşahidə olunan sürətli müsbət dəyişikliklərin müqayisəli xarakteristikası keçilən yolun möhtəşəm və əzəmətli olduğunu aydın şəkildə ifadə etməkdədir.







***Gərgin əmək və müdrik ideologiyaya sadiqliyin vəhdətindən doğan bu uğurlar, nailiyyətlər xalqımızın ümummilli lideri Heydər Əliyevin müəyyən etdiyi inkişaf yolunun alternativsizliyini bir daha sübut edir. Dahi öndərin "Mən istəyirəm ki, mənim arzum, istəklərim, Azərbaycan dövləti haqqında, müstəqil Azərbaycanın gələcəyi haqqında və Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan haqqında planlarım, arzularım yerinə yetirilsin" sözləri bu gün də quruculuq işlərinin əsas qayəsi olmaqla muxtar respublikamızı yeni-yeni uğurlara doğru aparır.***

**Rəşid TALIBOV**

# Naxçıvana muxtariyyət statusu qazandıran beynəlxalq müqavilələr

***1921-ci ilin mart ayında imzalanan Moskva müqaviləsi nəticəsində Türkiyə Böyük Millət Məclisi hökuməti bolşevik Rusiyasını, RSFSR isə Türkiyə Böyük Millət Məclisi hökumətini tanıdı. Müqavilənin Azərbaycan üçün ən böyük əhəmiyyəti ondan ibarət oldu ki, əzəli Azərbaycan torpağı olan Naxçıvan Azərbaycanın protektoratlığına verildi. Burada muxtar bir qurumun qurulmasının beynəlxalq hüquqi əsası müəyyənləşdirildi.***

Müqavilə hər iki tərəfin özünütəsdiq şansı olsa da, danışıqların gedişatında əzəli rus-türk rəqabətinin hənirtisi duyulurdu. Görünən tərəf ondan ibarət idi ki, Mustafa Kamal paşanın başçılığı ilə yenidən qurulmaqda olan Türkiyə bu müqavilə vasitəsi ilə həm də RSFSR-in "Milli And"la ("Misakı-Milli") müəyyənləşdirilmiş yeni Türkiyənin sərhədlərini tanımasına nail oldu. Türk Milli Mücadiləsinin manifesti sayılan bu "Milli And" Mustafa Kamal paşa tərəfindən hazırlanmış, İstanbulda toplanan son Osmanlı Məclisi tərəfindən 28 noyabr 1920-ci ildə qəbul edilmişdi. Lakin qeyd etmək lazımdır ki, Qarsı və Ərdəhanı öz əlində saxlayan Türkiyə Batumu Gürcüstana güzəştə getməklə "Milli And" da əksini tapmış sərhədi müəyyən qədər dəyişikliyə uğratmağa məcbur oldu.

"Türkiyə və Rusiya Sosialist Federativ Sovet Respublikası arasında dostluq və qardaşlıq haqqında" adlanan müqaviləni Türkiyə Böyük Millət Məclisi Hökuməti tərəfdən iqtisad naziri və Millət Məclisində Kastamonu millət vəkili Yusif Kamal bəy, maarif naziri və Sinop millət vəkili doktor Riza Nur bəy və Türkiyə Böyük Millət Məclisi Hökumətinin fövqəladə və səlahiyyətli səfiri, Ankara millət vəkili Əli Fuad paşa imzalamışdılar. Rusiya Sosialist Federativ Sovet Respublikası adından isə müqaviləyə xarici işlər üzrə xalq komissarı və Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin üzvü Georgi Çiçerin və Ümumrusiya Mərkəzi İcraiyyə Komitəsinin üzvü Cəlal Qorxmazov imza atmışdılar.

Müqavilənin imzalanması ilə yuxarıda sadalanan bir neçə üstünlükləri əldə edən Türkiyə Batumu güzəştə getsə də, Naxçıvan məsələsinin üzərində ciddi dayanmışdı. Bölgənin strateji mövqeyi və Naxçıvanın Türkiyəni Türk dünyasının əsas hissəsi ilə bağlayan əsas xətt üzərində yerləşməsi bu dirənişin başlıca səbəbi idi. Yerli əhalinin daşnak ermənilərə qarşı ciddi müqaviməti, Azərbaycan nümayəndəsi, görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin Azərbaycanın Naxçıvan və Zəngəzur üzərindəki haqlarını həm geosiyasi, həm də tarixi kontekstdə əsaslandırması da Naxçıvan ərazisinin Azərbaycanın ayrılmaz tərkib hissəsi kimi qorunub saxlanılmasında əsaslı rol oynamışdı. Tərəflər Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə o şərtlə razılaşmışdılar ki, Azərbaycan bu protektoratlığı heç bir zaman üçüncü bir tərəfə güzəştə getməyəcək.

Moskva müqaviləsinin 3-cü maddəsi və 1(V) əlavəsi birbaşa olaraq Naxçıvana həsr edilmişdi. Müqavilənin üçüncü maddəsində yazılırdı: "Razılığa gələn hər iki tərəf bu müqavilənin 1(V) əlavəsində göstərilən sərhədlərin içərisində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar, o şərtlə ki, Azərbaycan bu protektoratlığı heç bir zaman üçüncü bir dövlətə güzəştə getməyəcəkdir".

Naxçıvan ərazisinin coğrafi məkanlara nəzərən göstərildiyi üçüncü maddədə sərhədlərin tam təshihinin aparılması isə Türkiyə, Azərbaycan və Ermənistan nümayəndələrindən ibarət komissiyanın işi kimi müəyyənləşdirilirdi.

Türk tarixçisi İ.Atnur yazır ki, müqavilənin imzalanmasından sonra Ankaraya qayıdan Yusif Kamal bəy Mustafa Kamal paşaya "Naxçıvan üçün əlimizdən gələni etdik!" deyərkən Mustafa Kamal paşanın cavabı belə olmuşdur: "Qapımız mövcudluğunu mühafizə edir, bizim üçün mühüm olan budur!".

Tarixin sonrakı gedişatı isə göstərdi ki, həqiqətən də, bu mövcudluq həm Azərbaycan, həm Türkiyə, həm də bütünlükdə, Türk dünyası üçün nə qədər mühüm olmuşdur. Məhz bu müqavilə əsasında sonralar imzalanan Qars müqaviləsi Naxçıvana "muxtariyyət" adlı tarixi nailiyyəti qazandırmış, XX əsrin 90-cı illərində isə Naxçıvanın xarici təcavüzdən qorunmasında əhəmiyyətli rol oynamışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə 1991-ci il yanvar ayının 11-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Moskva və Qars müqavilələrinin iştirakçısı olan dövlətlərə bəyanat verərək həmin ölkələri muxtar respublikanın ərazi bütövlüyünün erməni təcavüzü nəticəsində kobud şəkildə pozulması faktlarına münasibət bildirməyə çağırmışdı.

**Elnur KƏLBİZADƏ**

## Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya dövlət orqanlarında vakant dövlət qulluğu vəzifələrinin tutulması üçün müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyənlər 7 mart 2014-cü il tarixdən 7 aprel 2014-cü il tarixədək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya (Naxçıvan şəhəri, Cəlil Məmmədquluzadə küçəsi 23) müraciət edərək müraciət formasını doldurmalıdırlar. Sənədlər şəxsən (həftənin iş günləri saat $09^{00}$-dan $12^{30}$-dək və $14^{00}$-dən $17^{30}$-dək) təqdim edilməlidir.

**Vətəndaşlar aşağıdakı sənədləri təqdim etməlidirlər:**
- şəxsiyyəti təsdiq edən sənəd
- ali təhsil haqqında sənədlər
- əmək kitabçası və ya surəti (olduğu təqdirdə)
- 2 ədəd ağ fonda rəngli fotoşəkil (3x4 ölçüdə)

Müsabiqə test imtahanı və müsahibədən ibarətdir.

**Əlaqə telefonu: 545-65-71**

| Dövlət orqanı və struktur bölmənin adı | Ştat sayı | Təsnifat | Vəzifənin adı |
|---|---|---|---|
| **1. Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi** | | | |
| Mühasibat uçotu, hesabat və hüquq işləri şöbəsi. Baş hüquqşünas | 1 | 6 | baş məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Ovşünas | 1 | 6 | aparıcı məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şərur rayonu üzrə | 1 | 7 | baş məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şərur rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Babək rayonu üzrə | 1 | 7 | aparıcı məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Babək rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Culfa rayonu üzrə | 2 | 7 | məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Şahbuz rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| Ətraf mühit və təbii sərvətlərdən istifadəyə dövlət nəzarəti şöbəsi. Sədərək rayonu üzrə | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **10** | | |
| **2. Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi** | | | |
| Sosial təminat və əlillərin sosial müdafiəsi şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Məşğulluq və miqrasiya şöbəsi | 1 | 6 | məsləhətçi |
| Əmək münasibətləri və əməyin mühafizəsi sektoru | 1 | 6 | məsləhətçi |
| **2.1. Dövlət Əmək Müfəttişliyi Xidməti** | | | |
| Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqi sektoru. Baş əmək müfəttişi | 1 | 7 | baş məsləhətçi |
| Əməyin mühafizəsi məsələlərinə nəzarət və istehsalatda baş vermiş bədbəxt hadisələrin təhqiqi sektoru.Baş əmək müfəttişi | 3 | 7 | məsləhətçi |
| Əməyin sosial hüquq məsələləri üzrə nəzarət sektoru. Əmək müfəttişi | 1 | 7 | baş məsləhətçi |
| Əməyin sosial hüquq məsələləri üzrə nəzarət sektoru. Əmək müfəttişi | 1 | 7 | məsləhətçi |
| Operativ nəzarət və informasiya sektoru. Əmək müfəttişi | 1 | 7 | baş məsləhətçi |
| Ümumi işlər və maliyyə təsərrüfat sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| **2.2. Dövlət Məşğulluq Xidməti** | | | |
| Əmək bazarının təhlili və statistika sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Əmək birjası sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Naxçıvan Şəhər Məşğulluq Mərkəzi | 1 | 7 | böyük məsləhətçi |
| Naxçıvan Şəhər Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Şərur Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Babək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Babək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Ordubad Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Culfa Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Culfa Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Kəngərli Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | baş məsləhətçi |
| Şahbuz Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | aparıcı məsləhətçi |
| Sədərək Rayon Məşğulluq Mərkəzi | 1 | 7 | məsləhətçi |
| **2.3. Dövlət Sosial Təminat Xidməti** | | | |
| Sosial müavinətlər və sosial yardımların təşkili sektoru | 1 | 7 | baş məsləhətçi |
| Sosial müavinətlər və sosial yardımların təşkili sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Sosial xidmətin təşkili və sosial proqramlar sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | məsləhətçi |
| Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Naxçıvan Şəhər Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 2 | 7 | məsləhətçi |
| Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Babək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 2 | 7 | məsləhətçi |
| Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | baş məsləhətçi |
| Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | məsləhətçi |
| Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | baş məsləhətçi |
| Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Culfa Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | baş məsləhətçi |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 1 | 7 | məsləhətçi |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Kəngərli Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial xidmətlər sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Sosial müavinətlər və sosial yardımlar sektoru | 2 | 7 | məsləhətçi |
| Şahbuz Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi.Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 3 | 7 | baş məsləhətçi |
| Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi.Sosial müavinətlər, sosial yardımlar və sosial xidmətlər sektoru | 1 | 7 | məsləhətçi |
| Sədərək Rayon Əhalinin Sosial Müdafiəsi Mərkəzi. Mühasibat uçotu və təsərrüfat sektoru. Mühasib | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **65** | | |
| **3. Naxçıvan Muxtar Respublikasının Gənclər və İdman Nazirliyi** | | | |
| Kütləvi bədən tərbiyəsi və idman şöbəsi. | 1 | 6 | məsləhətçi |
| Gənclərlə iş şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Naxçıvan Şəhər Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| Şərur Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi |
| Şərur Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| Babək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Babək Rayon Gənclər və İdman İdarəsi | 2 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Ordubad Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | baş məsləhətçi |
| Kəngərli Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi-mühasib |
| Sədərək Rayon Gənclər və İdman İdarəsi | 1 | 7 | məsləhətçi |
| **Cəmi:** | **14** | | |
| **4. Naxçıvan Muxtar Respublikasının İqtisadi İnkişaf Nazirliyi** | | | |
| Dövlət əmlakının özəlləşdirilməsinin təşkili və investisiyaların cəlb edilməsi sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| Maliyyə sektoru | 1 | 6 | məsləhətçi |
| Hüquq sektoru | 1 | 6 | məsləhətçi |
| **Cəmi:** | **3** | | |
| **5. Naxçıvan Muxtar Respublikasının Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi** | | | |
| Hüquqşünas | 1 | 6 | məsləhətçi |
| Poçt rabitə şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **2** | | |
| **6. Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyi** | | | |
| Şərur Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| Kəngərli Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| Kəngərli Rayon Təhsil Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Sədərək Rayon Təhsil Şöbəsi | 1 | 7 | baş mühasib |
| Şahbuz Rayon Təhsil Şöbəsi | 1 | 7 | aparıcı məsləhətçi |
| Şahbuz Rayon Təhsil Şöbəsi. Kadrlar üzrə | 1 | 7 | məsləhətçi |
| Ordubad Rayon Təhsil Şöbəsi | 1 | 7 | məsləhətçi |
| Ordubad Rayon Təhsil Şöbəsi | 2 | 7 | aparıcı məsləhətçi |
| Ordubad Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri | 1 | 7 | aparıcı məsləhətçi |
| Culfa Rayon Təhsil Şöbəsi. Təhsilin idarə olunmasının məlumat sistemləri | 1 | 7 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **11** | | |
| **7. Naxçıvan Muxtar Respublikasının Səhiyyə Nazirliyi** | | | |
| Tibbi statistika və informatika sektoru. Tibbi statist | 1 | 6 | aparıcı məsləhətçi |
| Tibbi yardımın təşkili şöbəsi. Ginekoloq | 1 | 6 | baş məsləhətçi |
| Kadr, elm və təhsil sektoru | 2 | 6 | aparıcı məsləhətçi |
| Əczaçılıq və özəl tibb müəssisələri sektoru | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **5** | | |

| | | | |
|---|---|---|---|
| **8. Naxçıvan Muxtar Respublikasının Kənd Təsərrüfatı Nazirliyi** | | | |
| İqtisadiyyat və maliyyə şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| **Cəmi:** | **1** | | |
| **9. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi** | | | |
| Dövlət aparatının və hüquq-mühafizə orqanlarının maliyyəsi şöbəsi | 1 | 6 | aparıcı məsləhətçi |
| Maliyyə Nazirliyi yanında Əyar Şöbəsi. Mühasib | 1 | 7 | aparıcı məsləhətçi |
| Naxçıvan Şəhər Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Maliyyə Şöbəsi. Xəzinə əməliyyatı və xəzinə əməliyyatının uçotu sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Şərur Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Culfa Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Culfa Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
| Sədərək Rayon Maliyyə Şöbəsi. Büdcə proqnozu və iqtisadi təhlil sektoru | 1 | 7 | aparıcı məsləhətçi |
